**Tədris planına dair qeydlər**

1. Ümumtəhsil məktəbində müvafiq pedaqoji kadr potensialı olduğu halda, ingilis, alman, fransız, rus, ərəb, fars dillərindən biri xarici dil kimi seçilib tədris olunur. Şagirdin öyrənəcəyi xarici dil o, I sinfə qəbul edilərkən valideyni tərəfindən seçilir və övladının məktəbə qəbulu barədə ərizədə qeyd edilir.

2. Növbəti siniflərdə xarici dilin dəyişdirilməsinə yol verilmir.

3. Hər birindən ən azı iki ixtisas müəllimi olarsa, valideynlərin arzusu nəzərə alınmaqla qruplara bölünən siniflərdə iki xarici dil tədris oluna bilər.

4. Pedaqoji kadr olmadığı halda, xarici dilə ayrılan saat ana dilinin tədrisinə verilir.

5. Tərkibində III və ya IV sinif olan komplekt siniflərdə "Ana dili" fənni 10 saat, "Həyat bilgisi" və "Texnologiya" fənlərinin hər biri 2 saat tədris olunur.

6. Dərsdənkənar məşğələ və dərnək məşğələsi qrupları şagirdlərin sayı 8 nəfərdən az olmamaq şərti ilə komplektləşdirilir.

7. Dərsdənkənar məşğələlərə ayrılmış saatlardan 1 saatı dərs cədvəlinə daxil edilməklə xarici dil tədris olunan məktəblərdə (iki xarici dil tədris olunan siniflər istisna olunmaqla) müvafiq xarici dilin daha səmərəli öyrənilməsinə, xarici dil tədris olunmayan məktəblərdə və iki xarici dil tədris olunan siniflərdə isə şagirdlərin ana dili üzrə nitq mədəniyyətinin inkişafına ayrılır.

Xarici dilin səmərəli öyrənilməsinə, yaxud ana dilindən nitq mədəniyyətinin inkişafına verilən saat üzrə mövzular müvafiq fənn müəllimlərinin iştirakı ilə təhsil şöbəsinin (idarəsinin) metodkabineti tərəfindən hazırlanıb təsdiq edilir.

8. Dərsdənkənar məşğələlərə ayrılmış digər 1 saat dərs cədvəlinə daxil olunmamaqla fakültativ kurs formasında şagirdlərin sayı 8 və daha çox olan siniflərdə, o cümlədən komplekt siniflərdə "Həyati bacarıqlara əsaslanan təhsil" kursunun tədrisinə verilir.

Şagirdlərin sayı 8 nəfərdən az olan siniflərdə həmin kurs sinif təşkilat saatlarında keçilir.

9. Təlim rus və gürcü dillərində aparılan məktəblərin şagirdlərin sayı 20 və daha çox olan I-IV siniflərində Azərbaycan dili, təlim dilindən asılı olmayaraq, bütün məktəblərin I-IV siniflərində xarici dil dərslərində (dərsdənkənar məşğələlərə ayrılmış saat hesabına tədris edilən xarici dil dərsi istisna olunmaqla) sinif 2 qrupa bölünür.

10. Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Ağstafa, Qazax, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı, Zəngilan rayonlarının, habelə Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumtəhsil məktəblərinin IV siniflərində "Mina təhlükəsinə dair maarifləndmə" kursu üzrə mövzular "Həyat bilgisi" fənninin daxilində keçilir.

11. Dərs ili I siniflərdə 31, II-IV siniflərdə 32 tədris həftəsindən ibarətdir. Dərs məşğələləri, bir qayda olaraq, sentyabrın 15-də başlayıb mayın 31-də başa çatır.

12. Dərs ili iki yarımilə bölünür:

12.1. birinci yarımil-15 sentyabr-29 dekabr

12.2. ikinci yarımil-06 yanvar-31 may

13. Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

13.1. payız tətili - 12-17 noyabr (6 gün)

13.2. qış tətili - 30 dekabr-05 yanvar (7 gün)

13.3. I siniflər üçün əlavə tətil - 12-17 fevral (6 gün)

13.4. yaz tətili - 17-24 mart (8 gün)